**UOT: 330.34; 330.35**
https://doi.org/10.59849/2409-4838.2026.1.74

# DAVAMLI İNKİŞAF KONSEPSİYASININ İDEYA-NƏZƏRİ ƏSASLARI

**Raul Adil oğlu Vəliyev**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası,
Bakı, Azərbaycan
raulvaeliyev@gmail.com

*Bu məqalədə davamlı inkişaf konsepsiyasının ideya-nəzəri əsasları təhlil edilərək bu konsepsiyanın nəzəri əsasları və metodoloji bazası sistemli şəkildə nəzərdən keçirilmişdir. Həmçinin məqalədə davamlı inkişafın məqsədləri araşdırılmış və təhlil belə qənaətə gəlməyə imkan verdi ki, bu məqsədlərin reallaşdırılması yalnız milli səviyyədə deyil, həm də beynəlxalq əməkdaşlıq və qlobal tərəfdaşlığın gücləndirilməsi ilə mümkündür. Davamlı inkişaf konsepsiyasının metodologiyası çərçivəsində bu konsepsiyanın metodoloji əsaslarını gücləndirən metodlar da araşdırılmış, sistemli və ətraflı şəkildə təhlil edilmişdir.*

***Açar sözlər:*** *davamlı inkişaf, sosial inkişaf, iqtisadi rifah, ekoloji sabitlik, davamlı inkişaf konsepsiyasının metodoloji bazası.*

## GİRİŞ

XX əsrin sonlarında dünyada baş vermiş geosiyasi dəyişikliklər nəticəsində beynəlxalq aləmdə baş verən dəyişikliklər yeni dünya nizamını yaratdı, bəşəriyyətin yaddaşında əsasən böyük faciələrə səbəb olan dünya müharibələri, xalqların milli-azadlıq hərəkatının genişlənməsi, imperiyaların dağılması, müstəqil dövlətlərin yaranması və s. səciyyələnir. Bu dünya nizamına daxil olan aktorların sayı getdikcə artırdı. Bunların sırasına dövlətlər, beynəlxalq qurumlar, hökumətlərarası və qeyri-hökumət təşkilatları, transmilli korporasiyalar, dövlətdaxili regionlar daxildir. Bu aktorlar XX əsrin sonu-XXI əsrin əvvəllərində dünya arenasında milli dövlətləri getdikcə sıxışdıraraq strateji dayaqları öz əllərinə alırlar. Müasir dövrdə bu güclər dünyada mövcud olan maddi və mənəvi sərvətlərin, geoiqtisadi və strateji xammal ehtiyatlarının, geosiyasi təsir dairələrinin bölünməsində, dünyəvi səviyyədə mal və xidmətlərin qiymətlərinin müəyyən olunmasında əsas məsələləri həll edirlər. Problemin araşdırılması mühüm aktuallıq kəsb edir. Məlum olduğu kimi, davamlı inkişaf - bəşəriyyətin inkişaf göstəricilərin seçilməsi və reallaşmasında özündə iqtisadi, ekoloji və sosial komponentləri birləşdirən sistemli yanaşmanın həyati vacibliyinin dərk olunmasını əks etdirən yeni inkişaf paradiqmasıdır. Burada söhbət müasir cəmiyyətin dəyərlərinin və məqsədlərinin, insan fəaliyyətinin müxtəlif sferalarının istiqamət və məzmunun köklü şəkildə dəyişdirilməsi əsasında bəşər inkişafının yeni çağa keçməsindən gedir.

## ƏSAS HİSSƏ

### Davamlı inkişaf konsepsiyasının nəzəri əsasları

19-cu əsrdə baş verən sənaye inqilabı ilə bərabər dünyada istehlak sürətləndi, müharibələrin təsiri ilə isə təbiətdəki dağıntılar qorxulu bir mərhələyə çatdı. Bu mənada, 1972-ci ildə Stokholmda keçirilən Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Konfransında ilk dəfə olaraq dayanıqlı inkişaf anlayışı müzakirəyə çıxarıldı. Davamlı inkişaf anlayışı 1987-ci ildə Dünya Ətraf Mühit və İnkişaf Komissiyasının hesabatı ilə beynəlxalq aləmdə xüsusi əhəmiyyət qazandı. Qısaca desək, davamlı inkişaf insanla təbiət arasında tarazlığı təmin edərək, gələcək nəsillərin ehtiyaclarının ödənilməsinə imkan yaradacaq şəkildə bu günün və gələcəyin həyatını və inkişafını planlaşdırmaq deməkdir. Buna görə də bu anlayış sosial, ekoloji, iqtisadi, məkan və mədəni aspektləri olan çoxşaxəli bir məfhum kimi qəbul olunur. Lakin bu çoxölçülü strategiyaların planlaşdırılması və həyata keçirilməsi

olduqca mürəkkəbdir. Məhz buna görə də 1992-ci ildə Rio-de-Janeyroda keçirilən Dünya Zirvəsində dayanıqlı fəaliyyət planlarının icrasının izlənilməsi və qiymətləndirilməsi məqsədilə Davamlı İnkişaf Komissiyası yaradıldı. Bu çərçivədə təhsil də müzakirə olunan əsas istiqamətlərdən biri oldu. Çünki davamlı inkişafın həyata keçirilməsi yalnız iqtisadi və ekoloji amillərin deyil, həm də insanların şüurunda və davranışlarında davamlılıq mədəniyyətinin formalaşması ilə mümkündür [5].

Davamlılıq anlayışı çox məşhur olmasına və bir çoxları tərəfindən tez-tez istifadə edilməsinə baxmayaraq, hələ də çox zaman yanlış izah edilir və tətbiq olunur. Bu anlayışın tərifində gələcəkdə də davamlılığın nəzərə alınması vacibdir. Davamlı inkişafın ən geniş yayılmış tərifi, "gələcək nəsillərin öz ehtiyaclarını ödəmə qabiliyyətini əlindən almadan indiki nəslin ehtiyaclarının qarşılanması" şəklindədir. Bu tərif ümumi olaraq aydın görünməsinə baxmayaraq, içində işlədilən ehtiyac anlayışının dəqiq izah olunması zəruridir. "İnsan ehtiyacı" anlayışı böyük ölçüdə yaşadığımız cəmiyyətin şərtlərinə uyğun formalaşır [4].

Davamlı İnkişaf Məqsədləri yoxsulluğun aradan qaldırılması, ətraf mühitin qorunması, iqlim böhranına qarşı tədbirlərin görülməsi, rifahın ədalətli paylaşdırılması və sülhün təmin olunması kimi hədəfləri özündə birləşdirən qlobal gündəmdir. 2015-ci ilin sentyabrında BMT Baş Assambleyası tərəfindən qəbul edilən və 2016-cı ilin yanvarından qüvvəyə minən bu məqsədlər, ümumilikdə 17 əsas istiqaməti və onlara bağlı 169 hədəfi əhatə edir. Bu hədəflərin uğurla həyata keçirilməsi dövlətlərin, özəl sektorun, akademiyanın və vətəndaş cəmiyyəti təşkilatlarının birgə fəaliyyətindən asılıdır. Əsas məqsəd həm insanların, həm də planetin faydasına olacaq dəyişikliklər yaratmaq, gələcək nəsillərə daha yaşana bilən bir dünya miras qoymaqdır. Yoxsulluğun sona çatdırılması, aclığın aradan qaldırılması, sağlam və keyfiyyətli həyat şəraitinin təmin edilməsi, gender bərabərliyinin möhkəmləndirilməsi, təmiz suya və enerji resurslarına çıxışın artırılması, dayanıqlı iqtisadi artımın dəstəklənməsi, sənaye və innovasiyaların təşviqi, eləcə də şəhərlərin dayanıqlı şəkildə inkişafı bu gündəmin mühüm tərkib hissələrini təşkil edir. Bununla yanaşı, məsuliyyətli istehsal və istehlak mədəniyyətinin formalaşdırılması, iqlim dəyişikliyi ilə mübarizə, dəniz və quru ekosistemlərinin qorunması, təbiətin bərpası və bioloji müxtəlifliyin davamlılığının təmin edilməsi də vacib istiqamətlərdən biridir [6].

Eyni zamanda, bu məqsədlər sosial və iqtisadi ədaləti gücləndirməyi, ölkələr daxilində və ölkələr arasında bərabərsizliyin azaldılmasını hədəfləyir. Şəhərlərin və insan məskənlərinin təhlükəsiz, davamlı və inklüziv formalaşdırılması, bütün insanların ləyaqətli işlə təmin olunması və iqtisadi inkişafdan pay alması vacib şərt kimi qəbul olunur. Sülh, ədalət və güclü institutların qurulması davamlı inkişaf üçün əsas dayaqlardan biridir, çünki müharibə və qeyri-sabitlik təkcə iqtisadi inkişafı ləngitmir, həm də nəsillər boyu davam edən ədalətsizliklərə yol açır. Bu baxımdan məqsədlərə nail olunması yalnız milli səviyyədə deyil, həm də beynəlxalq əməkdaşlıq və qlobal tərəfdaşlığın gücləndirilməsi ilə mümkündür. Texnologiya və bilik mübadiləsinin genişləndirilməsi, innovasiya və təcrübələrin paylaşılması isə davamlı inkişafın həyata keçirilməsini sürətləndirən əsas vasitələrdən sayılır. Nəticə etibarilə, Davamlı İnkişaf Məqsədləri bəşəriyyətin qarşılaşdığı qlobal problemlərin həllinə yönəlmiş, insanlıq üçün ümumi bir yol xəritəsi rolunu oynayır [16].

Ədəbiyyatda davamlı inkişafa dair konseptual çərçivə adətən ekoloji qorunma, sosial inkişaf və iqtisadi rifah kimi üç əsas komponentin qarşılıqlı əlaqəsi əsasında formalaşan kompleks yanaşmalar çərçivəsində izah olunur. Məsələn, C. Lemke tərəfindən hazırlanmış çərçivə bu üç əsas sahənin sistematik inteqrasiyasını təmin etməyə çalışır. O, davamlı inkişaf strategiyalarını həyata keçirən qərarvericilərə bu mürəkkəb sahənin fərqli aspektlərini anlamağa kömək edən alət təqdim edir. Bu çərçivə təkcə deskriptiv-analitik təhlili deyil, eyni zamanda transformativ, yəni dəyişiklik yarada biləcək strategiyaların inkişaf etdirilməsini də hədəfləyir [12].

Bu yanaşmanı daha da inkişaf etdirən tədqiqatçılardan biri Yosef Yabareen olmuşdur. Onun apardığı konseptual analiz müxtəlif ədəbiyyat nümunələri əsasında davamlı inkişafa dair ümumi nəzəri anlayış çatışmazlığını aradan qaldırmağa çalışır. Jabareen yeddi əsas, bir-biri ilə əlaqəli konsepti müəyyən edir: bunlara "*eco-form*", "*equity*", "*integrative management*" və "*global agenda*" kimi

anlayışlar daxildir. Bu konseptual sintez davamlı inkişafın yalnız ekoloji və iqtisadi çərçivələrlə məhdudlaşmadığını, həm də sosial ədalət, idarəetmə və qlobal miqyaslı məqsədlərlə vəhdətdə olduğunu vurğulayır. Onun analizi davamlı inkişafın parçalanmış təriflərinin yerinə daha ardıcıl, strukturlaşdırılmış və praktik tətbiqə uyğun model təqdim etməyə çalışır [1, 3, 11].

Bununla yanaşı, "*social-ecological systems* (SES)" konseptual yanaşması da davamlı inkişafın anlaşılması üçün mühüm nəzəri model kimi çıxış edir. Bu model insan və təbiət sistemlərini bir-birindən ayrılmaz hesab edir və onların arasında mövcud olan qarşılıqlı və mürəkkəb münasibətləri önə çəkir. SES yanaşması çərçivəsində sistemlər kompleks, adaptiv və çoxölçülüdür; bu isə onların sabitlik deyil, davamlılıq və dəyişikliklə uyğunlaşma əsasında idarə olunmasını tələb edir. Burada "*resilience*" (dayanıqlılıq və çevikliyə qarşı müqavimət) əsas prinsip kimi qəbul edilir. SES modelləri planlaşdırılmamış dəyişikliklərə adaptasiya etmək və uzunmüddətli dayanıqlılığı təmin etmək üçün strategiyaların formalaşdırılmasına nəzəri baza yaradır. Beləliklə, bu model davamlı inkişafın sadəcə sabitlik deyil, həm də dəyişikliklərə hazırlıq və uyğunlaşma bacarığını ön plana çıxarır [10].

Rus müəlliflərdən, Moiseyev davamlı inkişafı daha çox biosfer və cəmiyyət münasibətləri prizmasından dəyərləndirir. O, bu konsepsiyanın mahiyyətini təbiət və insan sistemi arasında tarazlığın təmin edilməsində görür və davamlılığın yalnız bu harmoniya ilə mümkün ola biləcəyini vurğulayır [8, s. 345].

E.Zabey və U.Vudborn isə davamlı inkişafı sosial rifahın artırılması ilə əlaqələndirirlər. Onların yanaşmasına görə, ətraf mühitə zərər vermədən insanların həyat səviyyəsini yüksəltmək, davamlı inkişaf strategiyasının əsas hədəfi olmalıdır [18].

Kaptyuq davamlı inkişaf anlayışına əsasən ətraf mühitin qorunması ilə iqtisadi inkişafın bir-birini tamamlayan şəkildə nəzərdə tutulmasını vacib sayır. Onun fikrincə, bu iki sahə bir-birinə qarşı qoyulmamalı, əksinə, uzlaşdırılaraq uzunmüddətli rifah və ekoloji sabitlik üçün birgə işləməlidir [7, s. 171].

Azərbaycanlı müəlliflərdən, Urxan Ələkbərovun yanaşması belə ifadə oluna bilər: onun fikrincə, davamlı inkişaf yalnız iqtisadi artım rəqəmləri ilə məhdudlaşdırıla bilməz; iqtisadi sferada əldə edilən uğurlar sosial ədalət və ekoloji sabitliklə tarazlaşdırılmadıqca, inkişafın özü uzunmüddətli ola bilməz. O, vurğulayır ki, hər bir strategiya gələcək nəsillərə sağlam mühit və yaşana bilən bir dünya buraxmaq niyyəti daşımalıdır. Bu baxımdan, təbii və yerli resursların səmərəli idarə olunması, əhalinin rifahının yüksəldilməsi, həmçinin sosial bərabərliyin təmin olunması dövlət siyasətinin prioritet istiqamətləri kimi nəzərdə tutulmalıdır. U.Ələkbərov hesab edir ki, davamlı inkişaf modeli yalnız cari dövrün iqtisadi göstəricilərinə fokuslanmamalı, insanların uzunmüddətli rifahına yönəlməli və milli olduğu qədər beynəlxalq səviyyədə də əsas prioritetlərdən biri kimi qəbul edilməlidir [2, s. 93].

**Davamlı inkişaf konsepsiyasının metodoloji bazası**

Davamlı inkişaf konsepsiyasının metodoloji bazası ilə bağlı onu demək mümkündür ki, davamlı inkişaf siyasəti çərçivəsində layihələrin effektivliyini dəyərləndirmək üçün geniş istifadə olunan metodlardan biri həyat dövrü təhlilidir (*Life Cycle Assessment*, qısaltması LCA). Bu metodoloji yanaşma siyasi rəhbərliyin məhsul və xidmətlərin ətraf mühitə təsirini daha sistemli şəkildə nəzərə almalarına şərait yaradır. LCA hər bir məhsul və ya xidmətin həyat dövrünü (yəni xammalın əldə olunmasından, istehsal və istifadəyə, daha sonra isə utilizasiya və ya təkrar emala qədərki mərhələləri) ardıcıl şəkildə təhlil edir. Bu, yalnız ayrı-ayrı mərhələlərin deyil, həm də onların qarşılıqlı təsirinin və ekoloji yükün bir mərhələdən digərinə transferinin nəzərə alınmasını təmin edir. Bu çərçivəyə uyğun olaraq, inkişaf əməkdaşlığı və ya beynəlxalq donor layihələri kontekstində də həyat dövrü təfəkkürünü əhatə edən və Davamlı İnkişaf Məqsədlərinə (SDG-lərə) əsaslanan analitik strukturlar formalaşdırılır. Bu strukturlar infrastruktur siyasətləri, innovativ texnologiyaların tətbiqi və sosial-iqtisadi dəyişikliklərin davamlılıq meyarlarına uyğunluğunu qiymətləndirmək üçün əsas alət kimi çıxış edir. SDG-lərlə inteqrasiya olunmuş həyat dövrü yanaşması, yalnız layihələrin ilkin təsirlərini deyil, həm də uzunmüddətli nəticələrini proqnozlaşdırmaq və idarə etmək baxımından ef-

fektivdir. Bu, davamlı inkişaf siyasətinin kompleksliyini nəzərə alan daha çevik və elmi əsaslandırılmış planlaşdırma modeli formalaşdırmağa imkan verir [13].

Davamlı inkişaf konsepsiyasının metodologiyası çərçivəsində, sosial, iqtisadi və ekoloji ölçüləri anlamaq və qiymətləndirmək üçün çoxölçülü və strukturlaşdırılmış indikator yanaşmaları tətbiq olunur. Bu yanaşmaların məqsədi yalnız mövcud vəziyyətin diaqnostikasını aparmaq deyil, eyni zamanda gələcək planlaşdırma və siyasət quruculuğu üçün strateji istiqamətlər müəyyənləşdirməkdir. Bu çərçivədə ən geniş istifadə edilən metodologiyalardan biri A. Paoli və F. Addeo tərəfindən təklif edilmiş üç sütunlu modeldir. Bu metodologiya hər üç əsas sahəni – iqtisadi rifah, sosial inkişaf və ekoloji davamlılığı əhatə edən göstəriciləri vahid analitik çərçivədə birləşdirərək SDG-lərin yerinə yetirilməsi üzrə ölkə səviyyəsində kompozit indekslərin formalaşdırılmasına imkan yaradır. Bu yanaşma davamlı inkişafın metodoloji əsaslarını möhkəmləndirərək, ayrı-ayrı SDG-lərin icrasını deyil, eyni zamanda onların bir-biri ilə əlaqəsini və sistem daxilindəki qarşılıqlı təsirlərini də nəzərə almağa şərait yaradır. Bu yolla bu metodoloji çərçivə yalnız nəticələrin ölçülməsini deyil, həm də davamlı inkişaf prosesinin zəif həlqələrinin aşkarlanmasını və siyasət qurucuları üçün prioritet sahələrin müəyyənləşdirilməsini asanlaşdırır. Bu da konsepsiyanın əsas hədəflərinə – balanslaşdırılmış, inklüziv və uzunmüddətli planlamaya əsaslanan inkişaf modelinin qurulmasına daha effektiv şəkildə nail olunmasına imkan verir [14, s. 237].

Bundan əlavə, davamlı inkişaf konsepsiyasının metodologiyası çərçivəsində, DPSIR modeli (*Drivers-Pressures-State-Impact-Response*) davamlılıqla bağlı proseslərin sistemli şəkildə təhlilinə imkan verən nəzəri-praktik bir çərçivə kimi çıxış edir. Bu metodoloji model davamlı inkişaf siyasətlərinin formalaşdırılmasında əsaslı analitik baza təmin edərək, sosial, iqtisadi və ekoloji dəyişikliklərin səbəb-nəticə əlaqələrini kompleks şəkildə izah edir. DPSIR modeli inkişafın hər hansı bir sahəsində müşahidə olunan dəyişiklikləri ardıcıl beş mərhələdə araşdırır. İlkin mərhələdə "drayverlər" (*drivers*), yəni struktur amillər, texnoloji dəyişikliklər və ya siyasət istiqamətləri kimi əsas səbəblər müəyyən edilir. Bu drayverlər sistemə "təzyiqlər" (*pressures*) formasında təsir göstərir; məsələn, sənayeləşmə nəticəsində artan karbon emissiyası və ya torpaq istifadəsindəki dəyişikliklər. Ardınca sistemin cari "vəziyyəti" (*state*) təhlil olunur; bu, ekosistemin sağlamlığı, sosial göstəricilər və ya iqtisadi balans kimi faktorları əhatə edə bilər. Bu vəziyyətdən irəli gələn "təsirlər" (*impacts*) isə həm ekoloji, həm də sosial-iqtisadi nəticələrə səbəb olur, məsələn, biomüxtəlifliyin itirilməsi, səhiyyə risklərinin artması və ya sosial bərabərsizliklərin dərinləşməsi baş verir. Modelin sonuncu komponenti olan "cavab" (*response*) mərhələsi bu təsirlərə qarşı inkişaf etdirilən siyasət, hüquqi tənzimləmə, texnoloji yenilik və ya cəmiyyət yönümlü müdaxilə mexanizmlərini əhatə edir. Bu cavablar sistemin dayanıqlılığını artırmaq və dəyişikliklərə adaptasiyanı təmin etmək məqsədi daşıyır [9, s. 551].

DPSIR modeli davamlı inkişafın metodoloji əsaslarını gücləndirən vacib alətlərdən biridir. Onun ən mühüm üstünlüklərindən biri fərqli elm sahələrini, hökumətləri və digər maraqlı tərəfləri bir araya gətirərək inteqrasiyalı və transdisiplinar təhlil aparmağa imkan yaratmasıdır. Bu isə davamlı inkişafın mürəkkəb təbiətini daha yaxşı anlamaq və məqsədyönlü, balanslaşdırılmış siyasətin hazırlanması üçün nəzəri-praktik əsas formalaşdırır.

Davamlı inkişaf konsepsiyasının metodologiyası çərçivəsində növbəti model "*The Natural Step*" (TNS) modelidir ki, o da öz növbəsində sistem əsaslı və prinsip yönlü planlaşdırmanın mühüm nümunələrindən biri kimi çıxış edir. Karl Henrik Robert tərəfindən hazırlanmış bu çərçivə davamlılığın təmin olunması üçün elmi cəhətdən əsaslandırılmış sistem şərtlərinə əsaslanır və planlaşdırma prosesində "*backcasting from principles*" yanaşmasını tətbiq edir [15, s. 190]. Bu metodoloji yanaşma mövcud vəziyyətdən irəli doğru proqnozlaşdırma ("*forecasting*") yerinə, gələcəkdə arzu olunan davamlılıq vəziyyətini müəyyənləşdirib, oradan geriyə – bu gündən etibarən həmin vəziyyətə çatmaq üçün atılmalı addımları planlaşdırma prinsipinə əsaslanır. Bu çərçivənin əsas gücü davamlı inkişafın strateji idarəetmə ilə birləşdirilməsindədir. İlk olaraq, davamlı cəmiyyət üçün vacib olan sistem şərtləri, məsələn, təbiətin struktur və funksional mənbələrinin deqradasiyasının qarşısı-

nın alınması, resursların ədalətli və səmərəli bölüşdürülməsi və kimyəvi maddələrin təbiətdə yığılmasının məhdudlaşdırılması kimi şərtlər müəyyən edilir. Ardınca bu prinsiplər işığında fəaliyyət göstərən təşkilat və ya cəmiyyət, uzunmüddətli hədəfə çatmaq üçün qərarlarını və prioritetlərini tərtib edir [17].

Metodoloji baxımdan bu yanaşma inteqrasiyanı və sistematik düşüncəni təşviq edir: TNS modeli fərqli sektorlarda, xüsusilə biznes, ictimai siyasət və urban inkişaf sahələrində tətbiq oluna biləcək çevik bir çərçivə təqdim edir. Hədəf sistemin bütövlükdə davamlılığa uyğun şəkildə dəyişdirilməsi və bu dəyişikliyin planlı, mərhələli və ölçüləbilən olmasıdır. Bu isə davamlı inkişaf konsepsiyasının əsas məqsədi olan uzunmüddətli tarazlığın, effektiv resurs idarəçiliyinin və sosial ədalətin təmininə elmi əsaslı və strateji yanaşma ilə töhfə verir.

## YEKUN NƏTİCƏ

Nəticə olaraq qeyd edə bilərik ki, davamlı inkişaf anlayışı tarix boyu insan və təbiət münasibətlərindəki tarazlıq axtarışının və bu münasibətlərin gələcək nəsillərin ehtiyacları kontekstində yenidən düşünülməsinin məhsuludur. Sənaye inqilabından bəri güclənən istehlakçılıq və təbiətə təsirlər davamlılığa yönəlmiş qlobal çağırışları zəruri etmişdir. 1987-ci ildə Brundtland Komissiyası tərəfindən irəli sürülən davamlı inkişaf tərifi bu konsepsiyanın beynəlxalq miqyasda mənimsənilməsinin əsasını qoymuş və daha sonra SDG-lər ilə sistemləşdirilmiş şəkildə yenidən çərçivələnmişdir. Davamlı inkişaf təkcə ekoloji davamlılığı deyil, eyni zamanda sosial rifah, iqtisadi bərabərlik, mədəni dəyərlər və məkan yönümlü siyasətləri də əhatə edən çoxölçülü və kompleks bir yanaşmadır. Bu baxımdan, elmi ədəbiyyatda Lemke, Jabareen, Kaptyuq və s. tərəfindən təklif olunan konseptual çərçivələr bu mürəkkəbliyin izahı üçün nəzəri əsasları formalaşdırır. Müxtəlif müəlliflərin, o cümlədən rus və azərbaycanlı tədqiqatçıların yanaşmaları göstərir ki, davamlı inkişafın həyata keçirilməsi yalnız normativ prinsiplərlə deyil, həm də real siyasət, sosial təcrübə və mədəni dəyişikliklərlə sıx bağlıdır. Bu səbəbdən davamlı inkişaf qlobal olduğu qədər lokal kontekstdə də planlı şəkildə yönəldilməli, insan mərkəzli strategiyalarla müşayiət olunmalıdır.

Eyni zamanda, davamlı inkişaf konsepsiyasının metodoloji bazası onun çoxölçülü və kompleks xarakterini nəzərə alan müxtəlif analitik yanaşmalara əsaslanır. Həyat dövrü təhlili (LCA) məhsul və xidmətlərin ətraf mühitə təsirini sistemli şəkildə qiymətləndirməyə imkan verir; üç sütunlu model sosial, iqtisadi və ekoloji ölçüləri bir çərçivədə birləşdirir və SDG-lərin icrasını əlaqəli şəkildə dəyərləndirir. DPSIR modeli isə öz növbəsində səbəb-nəticə əlaqələri əsasında inkişaf proseslərini təhlil etməklə hökumət tərəfindən müdaxilələrin strukturlaşdırılmasına kömək edir. "*The Natural Step*" modeli də sistem əsaslı düşüncə ilə strateji planlamanı birləşdirərək uzunmüddətli davamlılıq məqsədlərinə yönəlmiş qərarların qəbulunu asanlaşdırır. Bütün bu metodoloji yanaşmaların ümumi, yəni eyniləşdirici xüsusiyyəti ondan ibarətdir ki, onlar yalnız nəticələri ölçməklə kifayətlənmir, həm də effektiv siyasi kursun formalaşdırılması və adaptasiyası üçün əsaslı elmi və normativ baza təqdim edirlər. Bu isə davamlı inkişafın yalnız nəzəri konsepsiya deyil, praktik idarəetmə və planlaşdırma üçün funksional çərçivəyə çevrilməsinə imkan yaradır.

## ƏDƏBİYYAT

1. Ələkbərov, U. Davamlı inkişaf naminə səmərəli idarəetmə: Azərbaycan Respublikasının nailiyyətləri beynəlxalq təşkilatların hesabatlarında adlı məruzə ilə çıxış edib: [Elektron resurs] / 2016. URL: http://mail.tehsil.im/?m=yazi&id=2448
2. Ələkbərov, U. Davamlı inkişaf və ekoloji sivilizasiyasının idarə edilməsinin əsasları / U. Ələkbərov. – Bakı: Təhsil, – 2017. – 175 s.
3. Ələkbərov, U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları / U. Ələkbərov. – Bakı: Təhsil, – 2013. – 222 s.

4. Çelik, Y. Sürdürülebilir kalkınma kavramı ve sağlık. Hacettepe Sağlık İdaresi Dergisi, 2006, 9(1), 19–37. (s. 20-21)
5. Sürdürülebilir Kalkınma Nedir ve Neden Önemlidir? Evreka. URL: https://evreka.co/tr/blog/surdurulebilir-kalkinma-nedir-ve-neden-onemlidir/
6. Sürdürülebilir Kalkınma Nedir? İlkeleri Nelerdir? İş Bankası. URL: https://www.isbank.com.tr/blog/surdurulebilir-kalkinma-nedir
7. Каптюг, И. Устойчивое развитие и его элементы / И. Каптюг. Киев: Издательство Свободы, – 2002. – 421 с.
8. Моисеев, В. Путь устойчивого развития России / В. Моисеев. Москва: МГУ, – 2004. – 672 с.
9. Carr, E. R., Wingard, P. M., Yorty, S. C., Thompson, M. C., Jensen, N. K., & Roberson, J. Applying DPSIR to sustainable development. International Journal of Sustainable Development & World Ecology, – 2007, 14 (6), – p. 543–555.
10. Gallopin, G.C. The socio-ecological system (SES) approach to sustainable development indicators. in Routledge Handbook of Sustainability Indicators. 1st Edition. London: Routledge, – 2018.
11. Jabareen, Y.A. New Conceptual Framework for Sustainable Development // Environ Dev Sustain, – 2008, 10, – p. 179-192.
12. Lemke, C. Conceptual framework of sustainable development. In: Accounting and Statistical Analyses for Sustainable Development. Sustainable Management, Wertschöpfung und Effizienz. Springer Gabler, Wiesbaden, – 2021.
13. Maier, S. D., Beck, T., Francisco Vallejo, J., Horn, R., Söhlemann, J.-H., & Nguyen, T. T. Methodological Approach for the Sustainability Assessment of Development Cooperation Projects for Built Innovations Based on the SDGs and Life Cycle Thinking // Sustainability, –2016, 8 (10), – p. 1006.
14. Paoli, A. D., & Addeo, F. Assessing SDGs: A methodology to measure sustainability. Athens Journal of Social Sciences, – 2019, 6 (3), – p. 229–250.
15. Robert, K.H. Sustainability Handbook. Lund: Studentlitteratur AB, – 2012. – 204 p.
16. Sustainable Developmental Goals. Briefing Book 2023. UN Office for Partnerships. URL: https://unpartnerships.un.org/sites/default/files/publications/202401/SDG%20Briefing%20Book_2023.pdf
17. The Natural Step Framework. URL: https://web.stanford.edu/ class/ me221/ readings/NaturalStepOverview.pdf
18. Zabey, E., & Woodburn, U. Comment: Why business leaders are calling on the EU to pass the Nature Restoration Law, 2023 - REUTERS. URL: https://www.reuters.com/sustainability/land-use-biodiversity/comment-why-business-leaders-are-calling-eu-pass-nature-restoration-law-2023-06-21/

## IDEOLOGICAL AND THEORETICAL FOUNDATIONS OF THE CONCEPT OF SUSTAINABLE DEVELOPMENT

**R.A. Valiyev**

This article analyzes the ideological and theoretical foundations of the concept of sustainable development, systematically examining its theoretical underpinnings and methodological foundations. It also examines the Sustainable Development Goals, an analysis of which suggests the possibility of achieving them not only at the national level but also through strengthening international cooperation and global partnerships. Within the framework of the sustainable development concept's methodology, methods that strengthen its methodological foundations are also systematically and thoroughly analyzed.

**Keywords:** *sustainable development, social development, economic well-being, environmental sustainability, methodological foundations of the concept of sustainable development*

# ИДЕЙНО-ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ КОНЦЕПЦИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ

**Р.А. Велиев**

В статье анализируются идейно-теоретические основы концепции устойчивого развития, системно рассматриваются теоретические основы и методологическая база данной концепции. Также рассматриваются цели устойчивого развития, анализ которых позволяет сделать вывод о возможности их реализации не только на национальном уровне, но и путем укрепления международного сотрудничества и глобального партнерства. В рамках методологии концепции устойчивого развития также рассматриваются, системно и подробно анализируются методы, укрепляющие методологические основы данной концепции.

**Ключевые слова:** *устойчивое развитие, социальное развитие, экономическое благосостояние, экологическая устойчивость, методологические основы концепции устойчивого развития.*